# *"Daily Tribune" qəzeti:*
# "Laçın" nəzarət-buraxılış məntəqəsi sülh və sabitlik üçün yaradılıb"

Cənubi Qafqaz zəngin təbii sərvətlərə malik Mərkəzi Asiya ilə bu resurslardan məhrum olan Avropa arasında yerləşir. Bu baxımdan Ermənistan və Azərbaycan arasında sülh təkcə ermənilərin və azərbaycanlıların deyil, bütün Avrasiyanın rifahına töhfə verəcək. Azərbaycanın 2020-ci ildə İkinci Qarabağ müharibəsində parlaq Qələbəsi səhifəni çevirmək, hərbi əməliyyatları arxada qoyaraq beynəlxalq hüquqa əsaslanan münasibətləri normallaşdırmaq üçün tarixi imkan yaradıb.

23

# "Daily Tribune" qəzeti: "Laçın" nəzarət-buraxılış məntəqəsi sülh və sabitlik üçün yaradılıb"

*Əvvəli 1-ci səh.*

Bu fürsətdən istifadə etmək üçün Qərb Azərbaycanın baxışlarının əsaslandığı təkzibedilməz faktları daha yaxşı dərk etməlidir. Təəssüf ki, Ermənistan, erməni diasporu və onların xaricdəki havadarları son vaxtlar bu faktları gözdən salmaq üçün təbliğat kampaniyasına başlayıblar. Kampaniyanın bilavasitə məqsədi Amerika və Avropanın Bakıya təzyiq göstərməsinə nail olmaqdır. Daha uzunmüddətli məqsəd isə 2020-ci ilin noyabrında Ermənistanın müharibədə məğlubiyyətini etiraf etməsi ilə başlayan sülh prosesini alt-üst etməkdir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığındakı səfiri Şahin Abdullayevin bu ölkənin "Daily Tribune" qəzetində dərc olunmuş məqaləsində yer alıb.

"Nəzarət-buraxılış məntəqəsi gələcək sülh və sabitlik üçün yaradılıb" sərlövhəli məqalədə ermənilərin "Laçın" sərhəd-buraxılış məntəqəsinin yaradılması ilə bağlı dezinformasiya kampaniyası həyata keçirdikləri vurğulanıb. Qeyd edilib ki, halbuki 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatı imzalamaqla Ermənistan yenə reallığı qəbul edib və sülhün bərqərar olması ilə razılaşıb. Lakin buna baxmayaraq, həmin vaxtdan etibarən Ermənistan Laçın-Xankəndi yolundan Azərbaycanın mineral ehtiyatlarını talan edərək daşımaq, Qarabağda hərbi qüvvələrini möhkəmləndirmək, mina və silah-sursat daşımaq, Azərbaycan ərazilərində istehkamlar qurmaq üçün istifadə edib. Mina təhlükəsi hazırda da davam edir və 44 günlük Vətən müharibəsindən sonra 299 nəfər Azərbaycan vətəndaşı mina partlayışlarının qurbanı olub. Bu, sülhə hazırlaşan bir ölkənin hərəkətləri ola bilməz və bu taktika Azərbaycana çox tanışdır.



A checkpoint established for future peace and stability

SHAHIN ABDULLAYEV

The South Caucasus is the crossroads between resource-rich Central Asia and resource-hungry European economy. Peace between Armenia and Azerbaijan will foster the prosperity not just of the Armenians and Azerbaijanis but of all Eurasia. The resounding victory of Azerbaijan in the Second Karabakh War of 2020 created an historic opportunity to turn the page, to leave hostilities behind and normalize relations based on international law.

To seize this opportunity, the West must acquire a better awareness of the irrefutable facts on which the Azerbaijani views are based. Unfortunately, Armenia, its diaspora and foreign supporters have recently launched a propaganda campaign designed to obscure these facts from view. The immediate goal of the campaign is to bring American and European pressure to bear on Baku. The longer-term goal is to scuttle the peace process that began in November 2020, when Armenia acknowledged its defeat in the war.

The disinformation campaign focuses on events along the Lachin Road, linking Armenia with the Karabakh region of Azerbaijan, and it advances two main claims. First, that "blockade" of the road, which began on Dec. 12 by Azerbaijani environmental activists created a humanitarian disaster, endangering the lives of about 25 thousand ethnic Armenians in Karabakh.

**Since April 23rd the units of the State Border Service of Azerbaijan established a border crossing point in its sovereign territories, on the border with Armenia, at the beginning of the Lachin-Khankendi to ensure transparency of road traffic, the rule of law, and, thus, the safety of traffic**

...in its sovereign territories, on the border with Armenia, at the beginning of the Lachin-Khankendi to ensure transparency of road traffic, the rule of law, and, thus, the safety of traffic. We should state that mentioned control mechanism is being coordinated with the Russian peacekeeping contingent.

Let's take these misleading claims in turn, starting with the alleged humanitarian crisis. Humanitarian shipments, including medicines, food, and other essential goods, move easily into Karabakh. Local civilians facing urgent medical and other essential needs can leave for Armenia and return along the road.

To prevent any humanitarian crisis, Baku gave the International Red Cross unimpeded access to the road. It is recorded that 464 vehicles of ICRC and 5178 of Russian peacekeepers moved through the corridor in each direction freely. Soldiers of Russia, Armenia's greatest ally, are better placed than any other international actor to reassure Yerevan regarding the physical security of Karabakh Armenians.

Which brings us to the second spurious claim, namely, that Azerbaijan is denying ethnic Armenians in Karabakh their rights. Understanding why this is a blatant falsehood requires historical context, though it is quickly told. During the First Karabakh War, which ended in 1994, Armenian forces occupied and ethnically cleansed Karabakh and other surrounding Azerbaijani territories of ethnic Azerbaijanis. They killed, raped, and tortured many hundreds of innocent civilians, driving over 800,000 people from their homes in Karabakh and 250,000 Azerbaijanis forced to relocate from present-day Armenia often in the dead of winter, with the Khojaly massacre being the peak of this barbarity.

These crimes, committed with impunity and still awaiting justice, were well documented while they happened. In the wake of this, international law and every major power in the world reaffirms Karabakh as sovereign Azerbaijani territory, and full restoration of effective Azerbaijani control of Karabakh is seen as the basis for a just and lasting peace. For this reason, UN Security Council Resolutions 822, 853, 874 and 884 all demand the "complete, immediate and unconditional withdrawal" of Armenian forces from the territory of Azerbaijan. Even now, 10,000 Armenia's troops and as many as 18,000 terrorists and militias remain in Karabakh—a time bomb threatening peace and stability.

The UN issued these orders in 1993. For nearly three decades Azerbaijanis waited patiently for the international community to implement them. Meanwhile, Armenia played for time, just as it is doing now: talking about peace, preparing for war and unending misinformation. Its fore...

Yazıda məhz bu qanunsuz fəaliyyətlərin qarşısının alınması, hərəkətin təhlükəsizliyinin, qanunun aliliyinin təmin olunması üçün Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin bölmələrinin aprelin 23-də Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsi quraşdırdığı qeyd edilib. Yazıda Ermənistanın Azərbaycanın bu addımı ilə əlaqədar əsassız iddiaları tutarlı arqumentlərlə alt-üst edilib. Yazıda Azərbaycanın humanitar məqsədlər üçün maneəsiz hərəkətə şərait yaratdığı vurğulanıb, bu baxımdan Ermənistanın iddialarının əsassız olduğu diqqətə çatdırılıb. Bundan başqa, Birinci Qarabağ müharibəsi zamanı Ermənistanın azərbaycanlılara qarşı soyqırımı və etnik təmizləmə siyasəti həyata keçirdiyi, 800 mindən çox insanın doğma yurdlarından didərgin düşdüyü, minlərlə insanın qətlə yetirildiyi qeyd olunub. Bildirilib ki, təkcə indiki Ermənistan ərazisindən - tarixi dədə-baba torpaqlarından 250 mindən çox azərbaycanlı qovularaq etnik təmizləməyə məruz qalıb.

Müəllif Ermənistanın işğal etdiyi torpaqları qeyd-şərtsiz və dərhal tərk etməsinə dair BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin tələblərini yerinə yetirmədiyini vurğulayaraq, cəzasız qalmalarından istifadə edən ermənilərin etnik təmizləmə və vandalizm əməllərini davam etdirdiklərini bildirib. Qeyd olunub ki, ermənilərin vandalizm əməlləri nəticəsində şəhər və kəndlərimiz yer üzündən silinib, tarixi-mədəni irsimiz dağıdılıb.

Məqalənin sonunda vurğulanıb ki, sağlam siyasətə əsaslanan reallıqlar yeni faciələrin qarşısını ala bilər. İrəvan xəyallara və fantaziyalara son qoymalıdır. Ermənistan və onun himayədarları Qarabağdakı erməni əhalidən məkrli məqsədləri naminə istifadə etməyi dayandırmalıdır. Sülh prosesinə mane olmağa çalışanlar reallıqları dərindən dərk edib, keçmişin dərslərindən nəticə çıxarması və sülh naminə cəsarətli addımlar atması üçün Ermənistana kömək edə bilərlər.

Azərbaycan.- 2023.- 9 may.- S.1; 23.